*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 180-187*

https://doi.org/10.62837/2026.3.180

**HƏSƏNOVA AYTƏN**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0009-0002-4073-8854*
*ayten.hesenova@mail.ru*

# QƏBƏLƏ ŞİVƏLƏRİNDƏ AHƏNG QANUNU

**Xülasə**

Qəbələ bölgəsinə aid olan şivələrin fonetik quruluşunda ahəng qanununun təzahürü bu tədqiqat işinin əsas predmetini təşkil edir. Tədqiqat işində qeyd olunan ərazinin şivə xüsusiyyətləri əski türk ənənəsi ilə müqayisədə dəyərləndirilərək harmoniyanın qorunma dərəcəsi, qalın-incə sait tarazlığı, həmçinin ahəng pozuntusuna səbəb olan fonetik və morfoloji amillər müəyyən edilir. Ahəng qanununun həm kök, həm də şəkilçi səviyyəsində işlənməsi həmin şivələrin arxaik fonetik qatlarını qoruyub saxladığını sübut edir. Göstərilən cəhətlər bölgə şivələrinin tarixi dil qatları ilə dərin bağlılığını göstərir. Həmçinin, ahəng qanununun bəzi hallarda pozulması dilin daxili inkişaf prosesləri və digər dialektlərlə qarşılıqlı təsiri ilə də izah olunur. Şivələrdə müşahidə edilən fonetik dəyişmələr ümumtürk dil xüsusiyyətlərinin yerli mühitdə necə formalaşdığını aydın şəkildə göstərir. Buna görə Qəbələ şivələri Azərbaycan dialektologiyası üçün zəngin tədqiqat materialları təqdim edir. Aparılan araşdırma ahəng qanununun regional xüsusiyyətlərinin öyrənilməsinə yeni elmi yanaşmalar gətirir.

**Açar sözlər**: Qəbələ şivəsi, ahəng qanunu, damaq ahəngi, dodaq ahəngi, fonetik çalar.

## ГАРМОНИЯ ГЛАСНЫХ В КАБАЛИНСКИХ ГОВОРАХ

**Гасанова Айтен**
*Азербайджанский Государственный*
*Педагогический Университет*

**Резюме**

Фонетическая структура габалинских говоров и проявление в них закона гармонии гласных составляют основной предмет данного исследования. В работе особенности говоров указанного региона оцениваются в сопоставлении с древнетюркской фонетической традицией; определяется степень сохранения вокальной гармонии, соотношение передних и задних гласных, а также фонетические и морфологические факторы, вызывающие нарушение гармонии. Функционирование гармонии как на уровне корня, так и на уровне суффикса подтверждает сохранение в данных говорах архаических фонетических слоев. Указанные особенности свидетельствуют о глубокой

связи региональных говоров с историческими слоями языка. В то же время нарушения закона сингармонизма в отдельных случаях объясняются внутренними процессами языкового развития, а также взаимодействием с другими диалектами. Наблюдаемые в говорах фонетические изменения наглядно демонстрируют формирование общетюркских языковых особенностей в локальной языковой среде. В связи с этим говорам Габалинского региона принадлежит важное место в азербайджанской диалектологии как ценному источнику лингвистического материала. Проведённое исследование вносит новые научные подходы в изучение региональных проявлений закона сингармонизма.

**Ключевые слова:** Кабалинский говор, закон гармонии гласных, палатальная гармония, лабиальная гармония, *фонетические нюансы.*

## VOWEL HARMONY IN THE GABALA DIALECTS

**Hasanova Aytan**
*Azerbaijan State Pedagogical University*

### Abstract

The phonetic structure of the Gabala dialects and the manifestation of vowel harmony within them constitute the main focus of this research. The study evaluates the features of the dialects of this region in comparison with the Old Turkic phonetic tradition; it identifies the degree of preservation of vocal harmony, the balance between front and back vowels, as well as the phonetic and morphological factors that lead to harmony violations. The functioning of harmony at both the root and suffix levels confirms the preservation of archaic phonetic layers within these dialects. The aforementioned features indicate a profound connection between the regional dialects and the historical layers of the language. At the same time, occasional violations of vowel harmony can be explained by internal processes of linguistic development as well as by interaction with other dialects. The phonetic changes observed in these dialects clearly demonstrate how Common Turkic linguistic features have been shaped within a local linguistic environment. Therefore, the dialects of the Gabala region constitute a rich source of material for Azerbaijani dialectology. The present study introduces new scholarly approaches to the investigation of regional manifestations of vowel harmony.

**Keywords**: Gabala dialect, vowel harmony, palatal harmony, labial harmony, phonetic nuances.

### Giriş/İntroduction

Ahəng qanunu Azərbaycan dilinin dialektlərində fonetik harmoniyanı qoruyan əsas prinsiplərdən biridir və şivələrin fonetik xüsusiyyətlərini anlamaq üçün vacibdir. Qəbələ bölgəsinin şivələri isə həm damaq, həm də dodaq ahənginin mühafizəsi

baxımından xüsusilə zəngin nümunələr təqdim edir. A.Axundov qeyd edirki, "*ahəng qanunu yalnız ədəbi dildə deyil, dialektlərdə də müxtəlif formalarda qorunur*" [Axundov, 1984: 214]. Bu tədqiqatın məqsədi Qəbələ şivələrində damaq və dodaq ahənglərinin tətbiq sahələrini sistematik şəkildə araşdırmaqdır.

Qəbələ şivələrində ahəng qanunu ədəbi dildən fərqlənən bir sıra xüsusiyyətlərə malikdir. Ahəng qanununu aşağıdakı bölgü ilə izah etmək daha məqsədəuyğundur:

1.Damaq ahəngi;

2. Dodaq ahəngi;

3. Ahəngin pozulması.

***Damaq ahəngi.***Dilçi-alim Dəmirçizadə Azərbaycan dilinin fonetikası haqqında yazarkən ahəng qanununun əsasən damaq ahəngi üzərində qurulduğunu qeyd edir. O yazır: "Azərbaycan dilində söz tərkibində saitlərin ön-arxa (incə-qalın) xüsusiyyətlərinə görə uyğunlaşması dilin fonetik sisteminin əsas qanunauyğunluqlarından biridir" Qəbələ şivələrində həm qalın damaq saitlərinin, həm də incə damaq saitlərinin ardıcıllığı daha çox mühafizə edilir.

1) Qalın damaq saitlərinin ahəngi. Qalın damaq saitlərinin ardıcıllığı aşağıdakı hallarda özünü göstərir:

*a)* ismin adlıq, yiyəlik, yönlük,təsirlik, yerlik və çıxışlıq hallarında; məs.: *sac, sacın, saca, sacı, sajda, sajdan* (Zarağan)*və s.*

*b)* mənsubiyyət şəkilçilərinin I, III şəxs tək və cəmində; məs.: *babam, babamız, qabım, qabımız, babası, babaları* (əksər kəndlərdə)və s.

*c)* xəbərlik kateqoriyası şəkilçilərinin I və II şəxs təkində, III şəxs tək və cəmində; məs.: *kababçıyam, kababçısan,kababçıdı, kababçıdı (lar)* (əksər kəndlərdə) və s.

ç) məsdər şəkilçisində; məs.: *yazmax, almax, başdamax, yaşamax, barışmax* (əksər kəndlərdə)və s.

d) əmr şəklinin I,III şəxs tək və cəmində; məs.: *yazım, yazax, alım, alax, yazsın,* yazsınnar (əksər kəndlərdə)və s.

e) şühudi keçmiş zamanın I şəxs tək və III şəxs tək və cəmində; məs.: *yazdım, başardım, aldım, aldı, saldı (lar)* (Qəbələ, əksər kəndlər)və s.

ə) nəqli keçmiş zamanın I,II şəxs tək, III şəxs tək və cəmində; məs.: *yazmışam, yazmısan, yazıb(lar)* (əksər kəndlərdə) və s.

f) indiki zamanın I və II şəxs təkində, III şəxs tək və cəmində; məs.: yazıram, yazırsan, yazır(lar) (əksər kəndlərdə)və s.

g) qəti gələcək zamanda I, II şəxs tək, qeyri-qəti gələcək zamanda I, II şəxs tək, III şəxsin tək və cəmində; məs.: *yazcam, yazcısan, yazaram, yazarsan, yazar, yazal(lar)* (Qəbələ, əksər kəndlər)və s.

ğ) mürəkkəb xəbər şəklinin uzaq keçmiş, bitməmiş keçmiş, qəti gələcəkli keçmiş və qeyri-qəti gələcəkli keçmiş zamanlarının I şəxs tək və III şəxs tək və cəmində; məs.: *yazmışdım,yazırdım, yazacaxdım, yazardım; yazmışdı, yazırdı,*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 180-187*

*yazacaxdı, yazardı; yazmışdı(lar), yazırdı(lar), yazacaxdı(lar), yazardı(lar)* (Qəbələ, əksər kəndlər) və s.

h) feilin arzu şəklinin sadəsində I, II, III şəxs tək və I, III şəxs cəmdə; məs.: *yazam, yazasan, yaza, yazax, yaza (lar)* (əksər kəndlərdə) və s.

x) feilin şərt şəklinin sadəsində I şəxs tək və III şəxs tək və cəmdə; məs.: *alsam,başarsam, yassam, yassa (lar)* və s.

ı) feili sifətlərdə; məs.: *ağlağan* (uşaq), *qaçağan* (at), *annamaz* (adam) və s.

i) feili bağlamalarda; məs.: *yazıb, alıb, yazanda, yazıncan, aldıxca* və s.

j) zərflərdə; məs.: *aşağa, asda-asda* (əksər kəndlərdə) və s.

*2) İncə damaq saitlərinin ahəngi.* İncə damaq saitlərinin ardıcıllığı aşağıdakı hallarda özünü göstərir:

a) ismin adlıq, yiyəlik, yönlük,təsirlik, yerlik və çıxışlıq hallarında; məs.: *iynə, iynənin, iynəyə, iynəni, iynədə, iynədən* (əksər kəndlərdə)və s.

*b)* mənsubiyyət şəkilçilərinin I,III şəxs tək və cəmində; məs.: *əlim, əlimiz, əli, əlləri*(əksər kəndlərdə)və s.

*c)* xəbərlik kateqoriyası şəkilçilərinin I şəxs təkində və III şəxsin tək və cəmində; məs.: *getdim, tələbəyəm, tələbədir (lər)* (bütün kəndlərdə)və s.

ç) sıra saylarında; məs.: *birinci, yeddinci, ikinci, beşinci* və s.

*d)* əmr şəklinin I, III şəxs tək və cəmində, II şəxsin təkində; məs.: *səpim, səpəx', səpir, səpir(lər), səpginən, getginən* (Soltannuxa) və s.

*e)* şühudi keçmiş zamanın I şəxs tək, III şəxs tək və cəmində; məs.: *gəldim, gəldi, gəldi (lər)* və s.

ə) nəqli keçmiş, indiki və qeyri-qəti gələcək zamanların I, II şəxs təkində, III şəxs tək və cəmində; məs.: *gəlmişəm, gəlmisən, gəlib, gəlib(lər),bilirəm, bilirsən, bilir, bilil (lər), səpərəm, səpərsən, səpər, səpəl (lər) və s.*

*f)* feildən düzələn isimlərdə; məs.: *seçgi, gediş, gəliş* və s.

g) feili sifətlərdə; məs.: *yiməli* (xörək), *işdiyim* (su) (əksər kəndlərdə)və s.

ğ) feili bağlamalarda; məs.: *gedib, bilib, işdiyib, gəlincən, gedəndə, işdiyəndə, işdədikcə* və s.

h) zərflərdə; məs.: *tezdənnən, birdən, təzəcə, təkbətək* və s.

x) mürəkkəb xəbər şəklinin uzaq keçmiş, bitməmiş keçmiş, qeyri-qəti gələcəkli keçmiş zamanlarının I şəxs tək, III şəxs tək və cəmində; məs.: *vermişdim, vermişdi, vermişdi(lər); diyirdim, diyirdi, diyirdi(lər); gələrdim, gələrdi, gələrdi(lər)* və s.

ı) arzu şəklinin sadəsində I , III şəxs tək və cəmdə, II şəxs təkdə; məs.: *gedəm, gedəx', gedəsən, gedə, gedə(lər)* və s.

*i)* arzu şəklinin mürəkkəbində I şəxs tək, III şəxs tək və cəmdə; məs.: *gəleydim,gəleydi, gəleydi (lər)* və s.

*j)* vacib şəklinin sadəsində I, II şəxs təkdə, III şəxs tək və cəmdə; məs.: *getməliyəm, getməlisən, gəlməlidi, gəlməlidi(lər)* və s.

*k)* vacib şəklinin mürəkkəbində I şəxs tək, III şəxs tək və cəmdə; məs.: *gəlməliydim, gəlməliydi, gəlməliydi (lər)* (bütün kəndlərdə)və s.

q) şərt şəklinin sadəsi və mürəkkəbində I şəxs tək, III şəxs tək və cəmdə; məs.: *bilsəm, bilsə, bilsə(lər); bilseydim, bilseydi, bilseydi (lər)* (bütün kəndlərdə) və s.

*l)* bacarıq şəklinin inkarında şühudi keçmiş zamanın I şəxs tək, III şəxs tək və cəmində; məs.: *gedəmmədim, gedəmmədi, gedəmmədi(lər)* (əksər kəndlərdə) və s.

*m)* bacarıq şəklinin inkarında nəqli keçmiş, indiki və qeyri-qəti gələcək zamanların I, II şəxs tək, III şəxs tək və cəmində; məs.: *gedəmməmişəm, gedəmməmisən, gedəmmiyip, gedəmmiyip (lər); gedəmmirəm, gedəmmirsən, gedəmmir, gedəmmir(lər); gedəmmərəm, gedəmmərsən, gedəmməz, gedəmməz(lər)* (əksər kəndlərdə)və s.

**2. Dodaq ahəngi.** Qəbələ şivələrində istər dodaqlanan qalın, istərsə də dodaqlanan incə saitlərin ahəngi, demək olar ki, eyni dərəcədə mühafizə edilir. Şirəliyev qeyd edir ki, Azərbaycan dialektlərində dodaq ahəngi də sakit fonetik qanun kimi çıxış edir və söz daxilində saitlərin və səslərin uyğunlaşmasında labial səslərin təsiri vacib rol oynayır. Dodaq ahəngi xüsusilə şəkilçilərin tələffüzü zamanı daha aydın müşahidə olunur və dialektlər arasında fərqli səviyyədə qorunur[Şirəliyev, 1968: 24].Professor İ.Bayramovun da əsərində qeyd edilir ki, "*damaq və dodaq ahəngi" anlayışı bir bütöv kimi götürülür, yəni sait ahənginin dialektlərdə fərqli cür təzahürü kimi* [Bayramov, 2022: 67].

1) Dodaqlanan qalın saitlərin ahəngi. Bu təsnifat və fonetik müşahidələr Bayramovun dialekt fonetikasında dodaq ahənginin qorunma mexanizmi haqqında verdiyi izaha uyğun gəlir. O, əsərində qeyd edir ki, "*Azərbaycan şivələrinin böyük bir qismində o, u kimi saitlərin yaratdığı dodaqlanma morfoloji kateqoriyalarda ardıcıllıqla təzahür edir*" [Bayramov, 2015:18].

Dodaqlanan qalın saitlərin ahəngi aşağıdakı hallarda özünü göstərir:

a) ismin yiyəlik halında; məs.: *quşun, quşunun, qurdun, quzunun* və s.

b) mənsubiyyət şəkilçilərinin I, II şəxs tək və cəm, III şəxs təkində; məs.: *quzum, quzun, quzumuz, quzunuz, quzusu* (əksər kəndlərdə) və s.

c) əmr şəklinin I, III şəxs tək və II şəxs cəmində; məs.: *vurum, vursun, vurun// vuruz* (əksər kəndlərdə) və s.

ç) şühudi keçmiş zamanın I, II şəxs tək və cəm, III şəxs təkində; məs.: *qurdum, qurdun, qurdux, qurduz, qurdu* (əksər kəndlərdə) və s.

d) şərt şəklinin sadəsində I şəxs cəm, II şəxs tək və cəmdə; məs.: *vursux, vursun, vursuz* (əksər kəndlərdə) və s.

e) nəqli keçmiş zamanın I, II şəxs cəm, III şəxs tək və cəmində; məs.: *vurmuşux,vurmusuz, vurub, qurub, vurup(lar), qurup(lar)* (əksər kəndlərdə) və s.

**2)** Dodaqlanan incə saitlərin ahəngi. Dodaqlanan incə saitlərin ahəngi aşağıdakı hallarda özünü göstərir:

a) ismin yiyəlik halında; məs.: *gümüşün, gülün* və s.

b) mənsubiyyət şəkilçilərinin I, II şəxs tək və cəm, III şəxs təkində; məs.: *gülüm, gülün, gülümüz, gülünüz // gülü:z, gülü* və s.

c) əmr şəklinin I və III şəxs tək, II şəxs cəmində; məs.: *töküm, töksün, tökün // töküz* (əksər kəndlərdə) və s.

ç) şühudi keçmiş zamanın I, II şəxs tək və cəm, III şəxs təkində; məs.: *tökdüm, tökdün, töhdüx', tökdüz, tökdü* (əksər kəndlərdə) və s.

d) nəqli keçmiş zamanın I, II şəxs cəm və III şəxsin təkində; məs.: *bükmüşüx', bükmüsüz, bükdü* (bütün kəndlərdə) və s.

e) şərt şəklinin sadəsində II şəxs tək və cəmdə; məs.: *töksün, töksüz* (Qəbələ, Zarağan) və s.

***Ahəngin pozulması.***Azərbaycan dilində sait ahəngi (vokal harmoniya) dilin fonetik sisteminin əsas qanunauyğunluqlarından biri hesab olunur. Bu qanuna görə söz daxilində saitlər bir-biri ilə ahəng təşkil edir və əsasən qalın–incə, dodaqlanan–dodaqlanmayan qarşıdurması üzrə uyğunluq gözlənilir. Lakin dilin tarixi inkişafı, dialekt və şivələrin təsiri, habelə alınma sözlər nəticəsində sait ahəngi müəyyən hallarda pozula bilir. Məhərrəm Məmmədlinin "Azərbaycan dilaektologiyası" adlı dərsliyində şivələrdə ahəng qanununun pozulması məsələsi sistematik şəkildə izah olunur [Məmmədli, 2019: 78] Ahəngin pozulma formalarından biri də dodaqlanmayan saitlərin qeyri-ardıcıllığıdır.

Dodaqlanmayan saitlərin qeyri-ardıcıllığı iki əsas şəkildə özünü göstərir:

1.dodaqlanmayan qalın saitlərin qeyri-ardıcıllığı;

2.dodaqlanmayan incə saitlərin qeyri-ardıcıllığı.

Birinci halda söz daxilində qalın dodaqlanmayan saitlərin bir-biri ilə ardıcıl ahəng yaratmaması müşahidə olunur. Bu cür pozulmalar daha çox dialekt və şivə materiallarında, eləcə də fonetik dəyişmələrə məruz qalmış sözlərdə qeydə alınır. A. Axundovun qeyd etdiyi kimi, Azərbaycan dilində sait sistemində baş verən bu cür uyğunsuzluqlar fonetik variasiyaların və regional tələffüz xüsusiyyətlərinin nəticəsi kimi meydana çıxır [Axundov, 1984: 17].

İkinci halda isə incə dodaqlanmayan saitlər arasında ardıcıllıq pozulur. Bu tip ahəngsizliklər xüsusilə dialektoloji materiallarda daha qabarıq şəkildə nəzərə çarpır. Azərbaycan dilinin dialekt və şivələrində saitlərin yer dəyişməsi, ixtisar və ya keyfiyyət dəyişməsi nəticəsində incə saitlərin ahəngi pozula bilir. Bu xüsusiyyətlər "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə sistemli şəkildə qeydə alınmışdır [Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 32].

İ. Bayramovun tədqiqatlarında göstərildiyi kimi, Azərbaycan dialektologiyasında dodaqlanmayan saitlərin qeyri-ardıcıllığı regional fonetik fərqlərin mühüm göstəricilərindən biridir və bu hal dialektlərin təsnifatında da əhəmiyyətli rol oynayır [Bayramov, 2015; 2022]. Alim qeyd edir ki, sait ahənginin pozulması yalnız fonetik hadisə kimi deyil, həm də dilin tarixi inkişaf mərhələləri ilə bağlı bir proses kimi qiymətləndirilməlidir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 180-187*

M. Şirəliyev də öz əsərində vurğulayır ki, "*sait ahənginin pozulması, xüsusən dodaqlanmayan saitlərin qeyri-ardıcıllığı, ədəbi dil norması baxımından qəbul edilməsə də, dialekt və şivələrin təbii fonetik xüsusiyyəti kimi öyrənilməli və sənədləşdirilməlidir*"[Şirəliyev, 1968: 67]. Bu baxımdan, dodaqlanmayan saitlərin qeyri-ardıcıllığı Azərbaycan dilinin fonetik sisteminin dinamikliyini və zənginliyini əks etdirən mühüm göstəricilərdən biridir.

Dodaqlanmayan qalın saitlərdən sonra dodaqlanmayan incə saitlərin gəlməsi Azərbaycan dilinin bəzi dialekt və şivələrində, xüsusilə Qəbələ rayonunun Zarağan kəndi və ətraf yaşayış məntəqələrinin dil materiallarında geniş şəkildə müşahidə olunur. Bu fonetik xüsusiyyət əsasən feilin zaman, şəkil və modal formalarında özünü göstərir. Belə ki, sözügedən ahəng pozuntusu feilin qəti və qeyri-qəti gələcək zamanlarında (*başdicam, başdiyaram*), indiki zamanda (*başdiyıram*), nəqli keçmiş zamanın III şəxs təkinin həm təsdiq, həm də inkar formalarında (*başdiyıp, yazmiyıb*), eləcə də arzu, vacib və şərt şəkillərinin sadə və mürəkkəb quruluşlarında I və II şəxsin təkində, III şəxsin isə tək və cəm formalarında qeydə alınır. Eyni zamanda bu xüsusiyyət feilin bacarıq şəklinin müxtəlif zaman formalarında, xüsusən inkar şəkillərində (*başdiyammıram*), eləcə də feili bağlamalarda (*başdamiyib*) da müşahidə edilir. Göstərilən formalar dialekt materiallarında sait ahənginin pozulmasının sistemli xarakter daşıdığını və dodaqlanmayan qalın saitlərin ardınca incə saitlərin işlənməsinin təsadüfi deyil, müəyyən qrammatik kateqoriyalarla bağlı sabit fonetik norma kimi formalaşdığını göstərir.

Dodaqlanmayan qalın saitlərdən sonra dodaqlanan qalın saitlərin işlənməsi Azərbaycan dilinin bəzi dialekt və şivələrində, xüsusilə Qəbələ rayonu və onun Zarağan kəndi ətrafında yayılmış danışıq nümunələrində sistemli şəkildə müşahidə olunur. Bu fonetik xüsusiyyət əsasən feil və isim mənşəli qrammatik formaların şəkilçi sistemində özünü göstərir. Belə ki, ahəng pozuntusu mənsubiyyət şəkilçilərinin II şəxs tək və cəm formalarında (*qonağun, qonağu:z*), xəbərlik kateqoriyası şəkilçilərinin I və II şəxs cəmində (*bağbanux, bağbansuz*), eləcə də əmr şəklinin II şəxs cəmində həm təsdiq, həm də inkar formalarında (*yazun, yazmıyun*) qeydə alınır. Eyni zamanda bu xüsusiyyət şühudi keçmiş, nəqli keçmiş, indiki, qəti və qeyri-qəti gələcək zamanların I və II şəxs cəm formalarında (*aldux, almışux, alırux, alcux, alarux*), arzu şəklinin sadə quruluşunda II şəxs cəmdə (*yazasuz*), eləcə də mürəkkəb xəbər şəkillərinin müxtəlif keçmiş və gələcəkli zaman formalarında (*yazmışdux, alacaxduz*) müşahidə edilir. Göstərilən nümunələr dialekt materiallarında dodaqlanmayan qalın saitlərdən sonra dodaqlanan qalın saitlərin işlənməsinin təsadüfi olmadığını, əksinə, müəyyən şəxs və zaman kateqoriyaları ilə bağlı sabit fonetik xüsusiyyət kimi formalaşdığını və sait ahənginin regional variantda sistemli şəkildə pozulduğunu göstərir.

## Nəticə/Conclusion

Qəbələ şivələrində ahəng qanununun, xüsusilə damaq və dodaq ahənginin işlənmə mexanizmi araşdırmanın əsas istiqamətini təşkil edir. Tədqiqat prosesində hər iki ahəng növünün isim, feil və zərflərdə qorunması ilə bağlı nümunələr müəyyənləşdirilmiş və onların fonetik sistemdə tutduğu yer izah edilmişdir. Analiz nəticələri göstərir ki, Qəbələ şivəsi vokal harmoniyanın sabitliyini saxlayan, qədim fonetik ənənələri qoruyub yaşadan zəngin və sistemli bir quruluşa malikdir. Bu xüsusiyyət bölgə şivəsinin Azərbaycan dilinin dialekt mənzərəsində xüsusi mövqe tutduğunu təsdiqləyir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Axundov A. (1984). Azərbaycan dilinin fonetikası. Ali məktəb üçün vəsait, – Bakı: “Maarif”, –392 səh.
2. Azərbaycan dilinin dialektoloji lüğəti (2007). – Bakı: “Şərq-Qərb”, – 568 səh.
3. Bayramov İ. (2015). Azərbaycan dialektologiyasının əsasları. –Bakı: “ADPU”, – 93 səh.
4. Bayramov İ. (2020) Azərbaycan dili şivələrinin leksikası. – Bakı: “Elm və təhsil”, –148 səh.
5. Bayramov İ. (2022). Azərbaycan dialektologiyası. Ankara: “İKSAD”, –451 səh.
6. Dəmirçizadə Ə. (2007). Müasir Azərbaycan dili. Fonetika. – Bakı: “Şərq-Qərb”, –256 s.
7. Məmmədli M. (2019) Azərbaycan dialektologiyası (Ali məktəblər üçün dərslik). – Bakı: “Zərdabi LTD”, – 352 s.
8. Şirəliyev M. (1968) Azərbaycan dialektologiyasının əsasları (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: “Maarif”, –421 səh.

**Rəyçi: filologiya üzrə elmlər doktoru professor İbrahim Bayramov**